**“DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR”**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən

Qeydiyyat № ____________________

«________» _____________ 2023-cü il

İdarə rəisi:____________________________

**“TƏSDİQ EDİLMİŞDİR”**

Bank Olmayan Kredit Təşkilatı “İDEAL KREDİT” Məhdud Məsuliyyəti Cəmiyyətinin təsisçiləri tərəfindən

1. Qubadov Qubad Baxas oğlu

_____________________________

2. Hüseynov Eldar Əvəz oğlu

_____________________________

# BANK OLMAYAN KREDIT TƏŞKILATI “İDEAL KREDİT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN NİZAMNAMƏSİ

**(15-ci redaksiya)**

**Bakı Azərbaycan**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Nizamnamə Bank Olmayan Kredit Təşkilatı "İDEAL KREDİT" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN 1300480591) 15-ci redaksiyada nizamnaməsidir.
1.2. Bank Olmayan Kredit Təşkilatı «İDEAL KREDİT» Məhdud Məsuliyyətli Cəmiyyəti öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Bank olmayan kredit təşkilatı haqqında» Azərbaycan Respublikasının qanunu və qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir.
1.3. BOKT Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq təsis edilmiş hüquqi şəxsdir. BOKT-nin tam adı; Bank olmayan Kredit Təşkilatı «İDEAL KREDİT» Məhdud Məsuliyyətli Cəmiyyətdir.
1.4. BOKT qeyri müəyyən müddətə təsis edilmişdir.
1.5. BOKT «Bank olmayan kredit təşkilatları haqqında» Azərbaycan Respublikasının Qanununa, digər normativ aktlarına və bu Nizamnaməyə əsasən fəaliyyət göstərir. Bu Nizamnamədə öz əksini tapmayan məsələlər Azərbaycan Respublikasının Qanunvericiliyi ilə tənzimlənir. BOKT –nin Nizamnamə kapitalının məbləği bu Nizamnaməyə əsasən müəyyənləşdirilir və müvafiq nəzarət orqanı tərəfindən müəyyən olunmuş minimumdan aşağı olmamalıdır.
1.6. BOKT-in üzərində BOKT -nin adı və nişanı olan rəsmi möhürü var.
1.7.Hüquqi ünvanı: AZ 1052, Bakı şəh, Nərimanov ray, F.Xoyski küç, ev.111 "A", m.26
1.8. BOKT Azərbaycan Respublikası qanunvericiliyinə əsasən nəzərdə tutulan formada, qaydada və müddətdə öz fəaliyyəti haqqında aidiyyatı olan orqanlara hesabat verir.

## 2. FƏALIYYƏT DAIRƏSI

2.1. BOKT Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada fiziki, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə və Hüquqi şəxslərə qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə, habelə bu məqsədlə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydada ödəniş hesabları aça və apara, kredit kartları emissiya edə bilər.

2.2. BOKT tərəfindən verilən kreditlər daşınar və daşınmaz əmlakın girovu, qarantiya, zaminlik və qanunvericiliklə nəzərdə tulmuş digər üsullarla təmin oluna bilər.

2.3.Kreditlərin verilməsi üçün lisenziya almış BOKT aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər.

2.3.1 borc öhdəliklərinin alqı satqısı (faktorinq, forfeytinq)
2.3.2 lizinq;
2.3.3 veksellərin uçotu;
2.3.4 qarantiyanın verilməsi;
2.3.5 sığorta agenti xidmətinin göstərilməsi;
2.3.6 borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

2.3.7 Kredit vermək məqsədilə Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydada ödəniş hesabları aça və apara, kredit kartları emissiya edilməsi

2.4 Bu Nizamnamənin 2.3-cü bəndində nəzərdə tutulan fəaliyyət növləri üçün qanunvericiliklə lisenziyanın alınması tələb olunduqda, BOKT həmin fəaliyyət növləri ilə aidiyyatı dövlət orqanından lisenziya aldıqdan sonra məşğul ola bilər.
2.5. BOKT yuxarıda göstərilən fəaliyyətlərlə məşğul olmaq üçün aşağıdakı mənbələr hesabına maliyyələşdirilə bilər;
2.5.1 nizamnamə (şərikli) kapitalı (əmlak haqqları) və əldə edilmiş gəlirlər;
2.5.2 cəlb edilmiş kreditlər
2.5.3 fiziki və hüquqi şəxslərin ianələri, qrantları və digər formalarda əvəzsiz olaraq ayırdıqları vəsaitlər;
2.5.4 qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən əldə edilən vəsaitlər;
2.6 Beynəlxalq təşkilatlar, xarici ölkələrin hökümətləri və digər donorlar tərəfindən əvəzsiz olaraq ayrılan vəsaitlər, habelə onlardan əldə olunan gəlirlər BOKT tərəfindən Azərbaycan Respublikasından kənara çıxırılmamalıdır.
2.7 BOKT payçılar tərəfindən ona verilən əmlakın, apardığı fəaliyyət nəticəsində əldə etdiyi daxilolmaların və Azərbaycan Respublikası qanunvericiliyinə əsasən əldə edilən hər hansı digər əmlakın mülkiyyətçisidir.

## 3. NIZAMNAMƏ KAPITALI

3.1 Cəmiyyətin nizamnamə kapitalı 646700 manat həcmindədir və hər biri 6467.00 (altı min dörd yüz altmış yeddi) manat olmaqla 100 (bir yüz) paydan ibarətdir.
3.2 BOKT-nin iştirakçılarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir.

- **Qubadov Qubad Baxas oğlu** – 323 350 (üç yüz iyirmi üç min üç yüz əlli) manat, 50 pay, 50% pul şəklində;

- **Hüseynov Eldar Əvəz oğlu** – 323 350 (üç yüz iyirmi üç min üç yüz əlli) manat, 50 pay, 50% pul şəklində;

3.3 BOKT-a yeni iştirakçılar yalnız Ümumi Yığıncağın qərarına əsasən və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qoşula bilər.

3.4 BOKT əlavə ehtiyatları və kredit fəaliyətindən əldə edilən istifadə olunmayan daxilolmaları kapitalizasiya etdikdə. Payçılar tərəfindən əlavə ödəmələr edildikdə və ya BOKT-a yeni iştirakçılar qəbul olunduqda, Ümumi Yığıncağın qərarına əsasən nizamnamə kapitalını artıra bilər.

3.5. Cəmiyyət iştirakçısının qoyduğu mayanın tərkibi və onun dəyişməsi, mayanın qoyulması qaydası və müddəti Ümumi Yığıncaq tərəfindən müəyyən edilir.

3.6. Ümumi Yığıncağın qərarı əsasında vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranan xalis mənfəət iştirakçılar arasında onların nizamnamə kapitalındakı paylarına mütənasib qaydada bölüşdürülür.

3.7. Cəmiyyət, iştirakçının payını (və ya onun bir hissəsini) əldə etdiyi halda, həmin payı (və ya payın hissəsini) Ümumi Yığıncağın qərarında müəyyən edilmiş müddətdə və qaydada satmalı və ya qanunvericiliyə müvafiq qaydada nizamnamə kapitalını azaltmalıdır.

## 4.TƏSISÇILƏRIN HÜQUQ VƏ VƏZIFƏLƏRI

4.1 Payçıların aşağıdakı hüqüqları vardır:
4.1.1 Azərbaycan Respublikasının qanunvericilinə və bu Nizamnamənin şərtlərinə əsasən BOKT-nin idarə edilməsində iştirak etmək;
4.1.2 BOKT-nin fəaliyyətinə dair idarəetmə orqanlarından məlumat əldə etmək;
4.1.3 BOKT-nin idarə etmə orqanlarına təklif təqdim etmək;
4.1.4 BOKT-də olan payı özgəninkiləşdirmək, payına uyğun olan və BOKT-nin borcları məbləğində azaldılmış BOKT-nin əmlak hissəsi (nəğd pulla və ya Ümumi yığıncağın qərarına əsasən natura ilə) ödənilir: BOKT-nin akiv və passivlərin dəyəri iştirakçının çıxdığı məqamda daxili auditor və ya müstəqil auditor tərəfindən tərtib olunan balans üzrə hesablanır.
4.1.5 BOKT-un Nizamnamə kapitalı ilə bağlı mühüm iştirak payı əldə edilə bilər.
4.1.6 Azərbaycan Respublikasının qanunvericiliyində və bu Nizamnamədə nəzərdə tutulan digər hüquqlardan istifadə etmək.
4.2 Payçının vəzifələri:
4.2.1 Nizamnamənin 3-cü bəndinə uyğun olaraq payı ödəmək:
4.2.2 Bu Nizamnamənin müddəalarına əməl etmək:
4.2.3 BOKT –nin kommersiya sirrinə aid olan məlumatları yaymamaq:
4.2.4 BOKT-nin idarə olunmasında bu Nizamnamənin müddəalarına və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq iştirak etmək.
4.2.5 BOKT-nin vəzifə və öhdəliklərini yerinə yetirməsində ona yardım etmək.

## 5.BOKT-nin Hüquqları

5.1 Bu Nizamnamənin 2-ci bəndində göstərilən məqsədlərə nail olmaq üçün, BOKT-nin Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan qaydalara əsasən müqavilələr bağlamaq, əmlak hüquqları və şəxsi qeyri-əmlak hüquqlar əldə etmək, öhdəliklərini yerinə yetirmək və Azərbaycan daxilində və ya xaricdə qanuni fəaliyyətlə məğul olmaq hüququ vardır.
5.2 BOKT Azərbaycan Respublikasında və ya xaricdə keçirilən yığıncaq, yarmarka və sərgilərdə iştirak edə bilər.
5.3 BOKT Azərbaycan Respublikası və ya hər hansı digər ölkənin məhkəmə və arbitaj məhkəmələrində iddiaçı və ya cavabdeh kimi çıxış edə bilər, razılaşma və müqavilələr bağlamaq səlahiyyətinə malikdir.
5.4 BOKT Azərbaycan Respublikası qanunvericiliyə əsasən öz fəaliyyətinin məqsədlərinə uyğun olaraq əmlakına sahib ola, ondan istifadə edə və ona sərəncam verə bilər.
5.5 BOKT Azərbaycan Respublikaının daxilində və ya xaricdə hüquqi şəxslərin təsis olunmasında yalnız Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən iştirak edə bilər.
5.6 BOKT hüquqi şəxs olmayan filiallar və nümayəndəliklər aça bilər. BOKT belə filialların və nümayəndəliklərin öhdəlikləri üzrə məsuliyyət daşıyır.
5.7 BOKT Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası daxilində və ya xaricində öz əməliyyatlarını həyata keçirmək üçün zəruri olan

və istənilən daşınar və daşınmaz əmlakı satın almaq, icarə və kirayəyə götürmək hüququna malikdir.
5.8 Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən BOKT öz fəaliyyəti üçün lazım olan bütün əmlakı idxal və ixrac etmək hüququna malikdir.
5.9 BOKT azərbaycan Respublikasında və xaricdə öz işçiləri üçün təlim mərkəzləri təşkil etmək hüququna malikdir.
5.10 BOKT Azərbaycan Respublikası qanunvericiliyinin məcburi lisenziyalaşdırma və digər tələblərinə uyğun olmaq şərti ilə, BOKT kreditlərin verilməsi və digər kredit xidmətlərinin göstərilməsi şərtləri və hallarını müstəqil olaraq müəyyən edir.
5.11 BOKT Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycanda manat və xarici valyuta hesabları açmaq hüququna malikdir. BOKT Azərbaycan Respublikasından kənarda bank hesabları yalnız Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq aça bilər.

## 6.ÜMUMI YIĞINCAQ

6.1 Ümumi yığıncaq Azərbaycan Respublikası qanunvericiliyinə və Nizamnaməyə əsasən fəaliyyət göstərir və BOKT-nin ali idarəetmə orqanıdır. Təsisçilər şəxsən və ya səlahiyyətli nümayəndə vasitəsilə Ümumi Yığıncağın iclasında iştirak edə bilərlər. Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər.

6.2 Cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən maliyyə ili bitdikdən sonrakı altı aydan gec olmamaqla, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır. Növbəti Yığıncaqlardan başqa bütün Ümumi Yığıncaqlar Növbədənkənar Ümumi Yığıncaqlar adlanır.
Növbədənkənar Yığıncaqlar Mülki Məcəllədə nəzərdə tutulmuş qaydada çağırılır.
6.3. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Cəmiyyətin Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi, onun nizamnamə kapitalının miqdarının dəyişdirilməsi;

- Cəmiyyətin nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi;

- Cəmiyyətin illik hesabatlarının və maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətin və zərərin bölüşdürülməsi;

- Cəmiyyətin yenidən təşkili BOKT-nin fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi haqqında qərarın qəbul edilməsi və ləğvetmə komissiyasının təyin edilməsi

- Cəmiyyətin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, o cümlədən Direktorun təyin edilməsi və geri çağırılması,

- Cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və/ya) təftiş komissiyasını (müfəttişini) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

- Cəmiyyətin fəaliyyətinin kənar auditor yoxlanışlarının aparılması üçün kənar auditorların təyin edilməsi.

- Payçı tərəfindən nizamnamə kapitalına əlavə ödəmələrin məbləğinin forması və qoyuluşna dair qərarların verilməsi.

- Qanunvericilikdə yol verildiyi halda digər kredit təşkilatının kapitalında birbaşa və ya dolayı yolla iştiraka dair qərarların verilməsi.

- Cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqdin bağlanılması barədə qərarın qəbul edilməsi.

-Aidiyyəti şəxslə hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı qərarın qəbul edilməsi .

6.4. Ümumi Yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında cəmiyyətin paylarının əlli faizindən artıq hissəsinə malik olan iştirakçıları iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən çağırılmalıdır. Yenidən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının əlli faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 25 faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.Bir iştirakçıdan ibarət olan cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar həmin iştirakçı tərəfindən təkbaşına qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

Cəmiyyətin ləğv edilməsi və ya yenidən təşkili barədə qərarların qəbul olunması üçün Cəmiyyətin nizamnamə kapitalındakı payların 100%-nə malik olan iştirakçılar Ümumi Yığıncaqda təmsil olunmalıdırlar.

6.5. Ümumi Yığıncaqda nizamnamənin və nizamnaməyə edilən əlavə və dəyişikliklərin, nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi, Cəmiyyətin yenidən təşkil və ya ləğv edilməsi barədə qərarlar bütün təsisçilərin yekdil qərarı ilə, digər məsələlər isə sadə səs çoxluğu ilə qəbul edilir.

6.6. Nizamnamədə müəyyən edilib-edilməməsindən asılı olmayaraq, ümumi yığıncaq cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə bilər.

6.7. Ümumi Yığıncağın qərarları iştirakçılar tərəfindən qəbul edilir, onlar tərəfindən imzalanır və Cəmiyyətin möhürü ilə təsdiqlənir.

## 7.MÜŞAHIDƏ ŞURASI

7.1 Müşahidə Şurası Cəmiyyətin icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirən orqandır Müşahidə Şürasının üzvləri Ümumi Yığıncaq tərəfindən seçilirlər. Müşahidə Şürası azı 3 (üç) üzvdən ibarət olur. Sədr və üzvlər.

7.2 Əgər Müşahidə Şürasının üzvlərinin sayı üçdən (3) aşağı düşərsə, boş qalan yerləri mümkün olduğu qədər tez tamamlamaq üçün İdarə heyəti ümumi Yığıncağı çağırır.
7.3 Müşahidə Şürasının üzvləri dörd (4) illik müddətə seçilirlər və yenidən seçilə bilərlər. Müşahidə Şürasının üzvləri öz səlahiyyətlərini idarəetmə orqanlarına həvalə edə bilməzlər.
7.4 Aşağıdakı şəxslər Müşahidə Şürasının üzvləri ola bilməzlər:
7.4.1 Direktor;
7.4.2 BOKT-nin işçiləri;
7.4.3 Qanunvericilikdə Müşahidə Şurasının üzvü olmaq Hüququndan məhrum olan şəxslər.
7.5 Müşahidə Şürası öz yığıncaqlarının protokolunu aparacaq şəxsi təyin edir.
7.6 Müşahidə Şürasının yığıncaqları, Müşahidə Şurasının sədrinin təşəbbüsü ilə, Növbədənkənar yığıncaq isə direktorun və ya Müşahidə Şürasının iki üzvünün tələbi əsasında çağırılır. Müşahidə Şurasının sədri onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir.
7.7 Sədr yığıncaqları və yığıncağın tarixi, yeri, saatı və gündəliyi haqqında Müşahidə Şürasının üzvlərinə azı on beş (15) iş günü qabaqcadan bildirir (bu müddət hesablananda bildirişin verildiyi gün və yığıncağın keçirildiyi gün nəzərə alınmır). Xüsusi hallarda və Müşahidə Şurasının bütün üzvlərinin razılığı ilə, Müşahidə Şürası yuxarıda nəzərdə tutulmuş hallarda bildirişsiz çağırıla bilər.
7.8 Daxili auditor apardığı yoxlamalar nəticəsində növbədənkənar yığıncağın çağırılması tələb olunduğu haqqında yazılı şəkildə Müşahidə Şürasını xəbərdar etdikdə, Müşahidə Şürasının sədri Müşahidə Şürasının novbədən kənar yığıncağını daxili auditorun bildirişindən sonra azı 15 (on beş) gün ərzində çağırır.
7.9 İştirakçıların hər hansı biri qəbul edilmiş qərarı yoxlanılmış teleks, teleqram, faks, ünvanlı məktub və ya kuryer xidməti vasitəsi ilə göndərdikdə yazılı təsdiqləməlidirlər.
7.10 Müşahidə Şürasının qərarları adi səs çoxluğu ilə qəbul edilir. Müşahidə Şürasının yığıncağında 60%-nin iştirak etdiyi halda, yığıncaq lazımı şəkildə keçirilmiş hesab olunur. Müşahidə şurasının hər üzvü bir səsə malikdir.səsvermə zamanı bitərəf qalmaq qadağandır. Səslər bərabər olduqda sədrin səsi həlledici hesab edilir.
7.11 7.5-ci bəndə əsasən Müşahidə Şurası tərəfindən təyin olunan şəxs Müşahidə Şurasının qərarlarının protokolunu aparır. Həmin protokolda, bu qərarlardan əlavə, həmçinin müzakirə mövzusu, Müşahidə Şurasının iştirak edən üzvlərinin adları və hər bir qərara dair səslərin sayı da qeyd olunur. Yığıncağın protokolu iştirak edən üzvlər və katib tərəfindən imzalanır.
7.12 Bu Nizamnamənin hər hansı müddəasına xələl gətirmədən, Müşahidə Şurası direktorun, daxili auditorun və BOKT –nin əsas fəaliyyət istiqamətinə və bununla əlaqədər işinə nəzarət edir. Müşahidə Şurası lazımı hallarda direktora məsləhət verir. Lakin Müşahidə Şurası heç bir icra səlahiyyətinə malik deyil.
7.13 Direktorun aşağıdakı qərarları Müşahidə Şurası Tərəfindən təsdiq olunur.
7.13.1 BOKT-nin daxili siyasəti ilə nəzərdə tutulan digər qərarlar.
7.14 Müşahidə Şurası aşağıdakı səlahiyyətlərə malikdir;
7.14.1 Direktorun fəaliyyətinə nəzarəti həyata keçirir;
7.14.2 Növbədən kənar ümumi yığıncağın iclaslarını çağırır;
7.14.3 BOKT-nin illik maliyyə hesabatlarının və balansının təsdiqi;
7.14.4 BOKT-nin əsas fəaliyətinin müəyyən edilməsi, plan və hesabatların təsdiq edilməsi;
7.14.5 Daxili audit planlarının təsdiq edilməsi;
7.14.6 Ümumi yığıncağın qərarı ilə ona həvalə edilən digər səlahiyyətləri həyata keçirir.

## 8. AUDİT KOMİTƏSİ

8.1 Audit Komitəsinin sədri və üzvləri Müşahidə Şurası tərəfindən 4 (dörd) il müddətinə təyin olnur.
8.2 Audit Komitəsinin tərkibi 3 (üç) üzvdən ibarətdir, hər biri iqtisadiyyat, idarəetmə və ya hüquq sahələrində ali təhsil və maliyyə bazarları sahəsində və ya BOKT-nin fəaliyyət strategiyasında müəyyən edilən sahələrdə azı 3 illik iş təcrübəsinə malik olmalı, yaxud ali təhsil və həmin sahələrdə azı 5 illik iş təcrübəsinə malik olmalıdır.
8.3 Audit Komitəsi BOKT-nın Müşahidə Şurasına tabedir.
8.4 Audit Komitəsinin səlahiyyətləri cəmiyyətin əsasnaməsi ilə müəyyən edilir.
8.5 Audit Komitəsi BOKT-nın daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkilini həyata keçirir.
8.6 Daxili audit planlarını təsdiq edir və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirir,
8.7 Kənar auditin təyin edilməsi ilə əlaqədar Cəmiyyətin səlahiyyətli idarəetmə orqanlarına təkliflər verir,
8.8 Kənar auditlə birgə işi təşkil edir, auditin nəticə və tövsiyyələrinin həyata keçirilməsinə yardım edir,
8.9 Audit Komitəsinin tələbi ilə BOKT-nın bütün orqanları və vəzifəli şəxsləri BOKT-nın maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

## 9. DIREKTOR

9.1.Cəmiyyətin cari fəaliyyətinə rəhbərliklə onun işlərinin aparılmasının icrası Direktor tərəfindən həyata keçirilir.
9.2 Direktor ümumi yığıncağın və Müşahidə Şurasının göstərişlərinə muvafiq olaraq Cəmiyyətin cari fəaliyyətinə rəhbərliyi həyata keçirir.
9.3 Direktor Cəmiyyətin təsisçisi olan və təsisçisi olmayan kənar şəxslərdən ümumi yığıncaq tərəfindən 4 il müddətinə təyin edilir. Direktor növbəti müddətlərə də təyin oluna bilər. Direktor Müşahidə Şurasına üzv ola bilməz.
9.4.Sonrakı illərdə Direktorun fəaliyyətləri ümumi yığıncağın qərarı ilə vaxtından əvvəl dayandırıla bilər.
9.5. Direktor cəmiyyətin səlahiyyətlərinə qüvvədə olduğu müddətdə hər hansı səbəbdən öz vəzifələrinin icrasını dayandırırsa ,ümumi yığıncaq dərhal onun dəyişdirilməsini həyata keçirir.
9.6. Direktor öz fəaliyyəti haqqında Cəmiyyətin Müşahidə Şurasına hesabat verir. Ümumi yığıncaq tərəfindən tələb olunduğu təqdirdə, Direktor Ümumi Yığıncağa da hesabat verir.
9.7.Direktorun qərarları Cəmiyyətin məqsədinə, maraqlarına uyğun olmalıdır.
9.8. Direktor ümumi yığıncaq tərəfindən üzərinə qoyulmuş öhdəliklərə müvafiq olaraq və qüvvədə olan qanunvericiliyə əsasən cəmiyyətin fəaliyyəti üzrə məsuliyyət daşıyır.
9.9.Direktor hər hansı bir hərəkətinə görə təşkilata vurduğu zərərə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə məsuliyyət daşıyır və qanunvericiliklə nəzərdə tutulmuş qaydada vurduğu zərəri ödəməyə borcludur.
9.10. Direktor səlahiyyətləri hüdudunda, qanunvericilik və Nizamnaməyə müvafiq olaraq:
- cəmiyyətin Müşahidə Şürası tərəfindən təsdiq olunmuş planlarına müvafiq olaraq, onun işinə operativ rəhbərliyi həyata keçirir;

- Direktor eyni zamanda cəmiyyətin təsisçilərindən biri olduğu hallarda cəmiyyətin yeni filialının açılması və ləğv edilməsi barədə qərarların (əmrlərin) verilməsi;
- Direktor eyni zamanda cəmiyyətin təsisçilərindən biri olduğu hallarda vəzifəli şəxslərin BOKT-ə vurduqları, zərərə görə məsuliyyətlərinə dair qərarların (əmrlərin) verilməsi;
- cəmiyyətin nəzərdə tutduğu planların layihələrin, həmçinin bu planların icrası haqqında hesabatları təqdim edir, o cümlədən maliyyə ilinin bitməsindən 3 aydan gec olmayaraq illik balans, gəlir-xərclər, illik hesabat, elecədə maliyyə planının icrası haqqında hesabat təqdim edir;
-vəkalətnamə olmadan cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsindən çıxış edir. Onu istər ölkə daxilində, istərsə də xaricdə bütün idarələrdə, müəssisələrdə, təşkilatlarda təmsil edir,o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində çıxış edir;
-nizamnamənin müəyyən etdiyi hüdudlarda müxtəlif sövdələşmələr və başqa hüquqi aktlar yerinə yetirir, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüquqi ilə), banklarda cəmiyyətin cari və başqa hesablarını açır;
- Cəmiyyətin nizamnamə kapitalının 30%-ni keçməmək şərtilə kreditlərin verilməsinə birbaşa nəzarət edir;
- daxili əmək intizamı qaydalarının, ştat cədvəlinin işlənib hazırlanması və göstərilən qaydalara riayət olunmasını təmin edir;
-quruluş bölmələri haqqında əsasnaməni və təşkilatın əməkdaşlarının vəzifə təminatlarını təsdiq edir;
-cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, cəmiyyətin daxili əmək intizamı qaydalarına muvafiq olaraq onları tənbeh edir;
-cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər verir;
- Direktor eyni zamanda cəmiyyətin təsisçilərindən biri olduğu hallarda cəmiyyətin fəaliyyəti ilə əlaqədar əmlakın istifadəsinə (o cümlədən alınmasına, satılmasına, girov/ipoteka qoyulmasına, bağışlanmasına) dair qərarlar (əmrlər) verir;
-cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir, ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların icrasını təmin edir;
-nizamnaməyə müvafiq olaraq təşkilatın məqsədlərinə nail olmaq üçün istənilən qanunla qadağan olunmayan başqa işləri görür.

## 10.DAXILI AUDITOR VƏ KƏNAR AUDITORLAR

10.1.BOKT-nin auditoru Ümumi Yığıncaq tərəfindən təyin olunur. Müşahidə Şurasının heç bir üzvü və direktor eyni zamanda BOKT-nin daxili auditoru təyin edilə bilməz.
10.2.Daxili auditorun fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnaməyə və BOKT-nin daxili qaydalarına əsasən həyata keçirilir. Daxili auditorun BOKT-nin maliyyə –təsərrüfat fəaliyyətini yoxlamaq və bu məqsədlə BOKT-nin fəaliyyətinə aid bütün sənədləri əldə etmək hüquqi vardır.
10.3. Daxili auditor tərəfindən yoxlamalar rüblük audit planı, maliyyə ilinin sonunda Ümumi Yığıncağın hər hansı bir üzvünün və ya direktorun tələbi ilə həyata keçirilir.
10.4. Daxili auditor yoxlamanın və daxili nəzarətin nəticələri haqqında hesabatı Ümumi Yığıncağa, Müşahidə Şurasına və Direktora təqdim edir.
10.5. Ümumi Yığıncaq BOKT-nin illik balanslarını və maliyyə hesabatlarının düzgünlüyünü yoxlamaq üçün müstəqil kənar auditor cəlb etməlidir. Kənar auditor yüksək nüfuza malik milli və ya beynəlxalq auditor firması olmalıdır.

## 11.MÜHASIBAT VƏ DAXILOLMALAR

11.1. BOKT-nin əməliyyat ili təqvim ili hesab olunur. Mühasibat sənədləri və hesabları Azərbaycan Respublikası qanunvericiliyinə əsasən aparılır. Mühasibat sənədləri, həmçinin qanunvericilikdə yol verildiyi halda ümumi olaraq qəbul edilmiş Beynəlxalq Mühasibat Standartlarına uyğun olaraq aparıla bilər.
11.2. BOKT-nin kredit və digər əməliyyatlardan əldə etdiyi daxilolmalar BOKT-nin maraqlarına uyğun olaraq direktor tərəfindən bu Nizamnamədə göstərilən kredit əməliyyatları üçün istifadə oluna bilər. Qrant vəsaitlərinin yuxarıda göstərilən məqsədlər üçün istifadəsi yalnız qrant müqaviləsində nəzərdə tutulduqda mümkündür.
11.3.Vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranan xalis mənfəət, qrant vəsaitləri istisna olaraq qalan xalis mənfəət iştirakçılar arasında onların nizamnamə kapitalındakı paylarına mütənasib qaydada və ümumi yığıncağın qərarı əsasında bölüşdürülə bilər.

## 12.FƏALIYYƏTIN DAYANDIRILMASI

12.1.BOKT-nin fəaliyyəti ləğv olunma formasında dayandırılır.
12.2.BOKT Ümumi Yığıncağın qərarı ilə Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan şəkildə yenidən təşkil oluna bilər.Yenidən təşkil olunduqda BOKT-nin hüqüq və vəzifələri bölundükdə onun hüquqi varisinə keçir.
12.3.BOKT aşağıdıkı hallarda ləğv oluna bilər:
12.3.1.BOKT -nin Ümumi Yığıncağının qərarı əsasında;
12.3.2 .Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan qaydada Azərbaycan Respublikası məhkəməsi tərəfindən qəbul olunmuş qərar əsasında; və ya qanunvericiliyində nəzərdə tutulan hər hansı digər hallar əsasında;
12.4.BOKT-nin ləğvi haqqında qərar qəbul olunduqda, Ümumi Yığıncaq və ya başqa səlahiyyətli orqan Azərbaycan Respublikası qanunvericiliynə əsasən ləğvetmə Komissiyası təyin edir. Ləğvetmə komissiyası aralıq ləğvetmə balansı tərtib etməli və ləğvetməni Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada aparılmalıdır. BOKT-nin bütün borclarının ödənilməsindən sonra BOKT-nin yerdə qalan əmlakı payçılara qaytarılır.
12.5.BOKT Hüquqi Şəxslərin Dövlət Reyestrindən çıxarıldığı andan hüquqi əsas kimi ləğv olunmuş sayılır.

## 13.DIGƏR ŞƏRTLƏR

13.1.Bu Nizamnamə Ümumi Yığınacaq tərəfindən təsdiq olunduqdan və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq payçılar tərəfindən imzalandıqdan və dövlət qeydiyyatından keçdikdən sonra qüvvəyə minir.
13.2. Bu nizamnamə Iştirakçıların Ümumi Yığıncağının (üçdə ikisi) səs çoxluğu əsasında qəbul edilmiş qərarına uyğun tamamlama tam yaxud qismən dəyişdirilə bilər. Nizamnamənin dəyişdirilməsi onun dövlət qeydiyyatından keçdiyi andan qüvvəyə minir.
13.3.Gələcəkdə bu Nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyət təşkil edərsə, qanunvericiliyin müddəası tətbiq edilir.

## ***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* BANK OLMAYAN KREDİT TƏŞKİLATI "İDEAL KREDİT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 09.01.2003

*Əvvəlki dövlət qeydiyyat №* 22

*Dövlət qeydiyyat № (VÖEN)* 1300480591

*Təşkilati-hüquqi forması* Məhdud məsuliyyətli cəmiyyət

*Sahibkarlıq subyektinin meyarı* Orta sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1052, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, FƏTƏLİXAN XOYSKİ PR., ev 111"A", mənzil 26

*Çıxarışın verildiyi tarix və №* 11.12.2024, 3-21-2-2-1/2-39246/2024

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* BANK OLMAYAN KREDİT TƏŞKİLATI "İDEAL KREDİT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 1300480591

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 646,700.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*

HÜSEYNOV ELDAR ƏVƏZ OĞLU - 50 % və QUBADOV QUBAD BAXAS OĞLU - 50 %

*Müşahidə şurasının üzvləri (əvvəlki)* QULİYEV ORXAN YAVƏR OĞLU, NAĞIYEVA NİGAR RASİM QIZI, SƏFƏRLİ RƏŞAD MƏHƏRRƏM OĞLU

*Müşahidə şurasının üzvləri (hazırki)* QULİYEV ORXAN YAVƏR OĞLU, SƏFƏRLİ RƏŞAD MƏHƏRRƏM OĞLU, KƏRİMOVA LEYLA ƏLİ QIZI

*Çıxarışın verildiyi tarix və №* 11.12.2024, 3-21-2-2-1/2-39246/2024

Cəfərova L.T.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi***

*Qurumun adı* BANK OLMAYAN KREDİT TƏŞKİLATI "İDEAL KREDİT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 1300480591

*Qanuni təmsilçi* QUBADOV QUBAD BAXAS OĞLU

*Çıxarışın verildiyi tarix və №* 11.12.2024, 3-21-2-2-1/2-39246/2024

Cəfərova L.T.

*Qeydiyyat orqanının adı* Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

*Qurumun adı* **BANK OLMAYAN KREDİT TƏŞKİLATI "İDEAL KREDİT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

*Ünvanı* AZ1052, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, FƏTƏLİXAN XOYSKİ PR., ev.111"A", m.26

*Qeydiyyata alındığı tarix* 09.01.2003

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən 'bir pəncərə' prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

**QEYDİYYAT №(VÖEN) 1300480591**

**Zamanova Aytən Asəf qızı**

Qeydiyyat orqanının rəhbəri 05.12.2016